# AZƏRBAYCAN RESPUBLİKASI VƏKİLLƏR KOLLEGİYASININ VƏKİLLƏRİN İNTİZAM KOMİSSİYASI HAQQINDA ƏSASNAMƏ

*Azərbaycan Respublikası Vəkillər Kollegiyası üzvlərinin Ümumi Yığıncağı (Konfransı) tərəfindən 06.12.2022-ci il tarixdə yeni redaksiyada qəbul edilmişdir.*

## 1. Ümumi müddəalar

**1.1.** Azərbaycan Respublikası Vəkillər Kollegiyasının nəzdində müstəqil seçkili orqan olan Vəkillərin İntizam Komissiyası (bundan sonra – İntizam Komissiyası) vəkillər tərəfindən peşə fəaliyyətinin həyata keçirilməsi ilə bağlı yol verilən intizam pozuntularına dair müraciətlərə baxılması və onların intizam məsuliyyətinə cəlb edilməsi ilə əlaqədar məsələlərin həll olunması üçün "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq yaradılır.

**1.2.** Bu Əsasnamə İntizam Komissiyasının tərkibini, səlahiyyətlərini, iş qaydasını və Komissiyanın fəaliyyəti ilə əlaqədar digər məsələləri müəyyən edir və tənzimləyir.

**1.3.** İntizam Komissiyası öz fəaliyyətində qanunun aliliyi, müstəqillik, demokratizm, humanizm, ədalət və konfidensiallıq prinsiplərini rəhbər tutur.

**1.4.** İntizam Komissiyası öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyasına, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Nizamnaməsinə, "Vəkillərin davranış qaydaları haqqında" Əsasnaməyə və bu Əsasnaməyə uyğun olaraq həyata keçirir.

## 2. İntizam Komissiyasının tərkibi

**2.1.** İntizam Komissiyasının tərkibi onun sədrindən, sədr müavinindən və üzvlərindən ibarətdir.

**2.2.** İntizam Komissiyası üzvlərinin sayı Vəkillər Kollegiyası üzvlərinin Ümumi Yığıncağı (Konfransı) tərəfindən müəyyən edilir.

**2.3.** İntizam Komissiyasının sədri, sədr müavini və üzvləri Vəkillər Kollegiyası üzvlərinin Ümumi Yığıncağı (Konfransı) tərəfindən 5 (beş) il müddətinə seçilir.

## 3. İntizam Komissiyasının səlahiyyətləri

**3.1.** İntizam Komissiyası vəkillərin intizam məsuliyyətinə cəlb edilməsi haqqında və vəkillər tərəfindən peşə fəaliyyətinin həyata keçirilməsi ilə bağlı yol verilən intizam pozuntularına dair müraciətlərə, habelə zərurət olduqda Vəkillər Kollegiyasının Rəyasət Heyətinin müraciəti əsasında intizam tənbehinin ləğv edilməsi və ya dəyişdirilməsi barədə vəkillərin ərizələrinə baxır.

**3.2.** İntizam Komissiyası baxılan intizam icraatı üzrə aşağıdakı hüquqlara malikdir:

**3.2.1.** məhkəmələrdən, ədliyyə, prokurorluq, polis orqanlarından, mülkiyyət formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatlardan, ictimai birliklərdən, digər hüquqi şəxslərdən, onların vəzifəli şəxslərindən, habelə onların razılığı ilə fiziki şəxslərdən zəruri olan məlumatlar və sənədlər almaq;

**3.2.2.** məhkəmələrin razılığı ilə konkret işlərlə tanış olmaq;

**3.2.3.** barəsində araşdırma aparılan vəkillərdən və zərurət olduqda digər əlaqədar şəxslərdən izahatlar, zəruri olan məlumatlar və sənədlər almaq;

**3.2.4.** xüsusi bilik tələb edən məsələlərin araşdırılması üçün Vəkillər Kollegiyasının Rəyasət Heyəti vasitəsilə ekspert və ya mütəxəssis rəyi almaq.

**3.3.** İntizam Komissiyası üzvünün səlahiyyətlərinə aşağıdakı hallarda xitam verilir:

**3.3.1.** səlahiyyət müddəti qurtardıqda;

**3.3.2.** öz arzusu ilə səlahiyyətinə xitam verilməsi barədə yazılı ərizə verdikdə;

**3.3.3.** Vəkillər Kollegiyasının üzvlüyündən xaric edildikdə.

**3.4.** Bu Əsasnamənin 3.3.2-ci və 3.3.3-cü bəndlərində göstərilən hallarda İntizam Komissiyası üzvünün səlahiyyətlərinə Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarı ilə xitam verilir.

## 4. İntizam Komissiyası üzvünün hüquqları və vəzifələri

**4.1.** İntizam Komissiyasının üzvü aşağıda qeyd edilən hüquqlara malikdir:

**4.1.1.** intizam icraatı üzrə aparılan araşdırmada iştirak etmək;

**4.1.2.** intizam icraatı üzrə toplanmış materiallarla tanış olmaq, onlardan çıxarışlar etmək;

**4.1.3.** İntizam Komissiyası iclasının vaxtı və yeri barədə əvvəlcədən xəbərdar edilmək;

**4.1.4.** baxılan məsələlər üzrə məruzə etmək;

**4.1.5.** iclasa dəvət olunmuş müraciət edən şəxsə və məsuliyyət məsələsinə baxılan vəkilə suallar vermək, zəruri sənəd və digər materialların tələb edilməsi barədə vəsatət vermək, baxılan məsələlər üzrə öz dəlil və mülahizələrini təqdim etmək;

**4.1.6.** intizam icraatı üzrə səsvermədə iştirak etmək;

**4.1.7.** intizam icraatı üzrə qəbul edilmiş rəyə xüsusi rəyini əlavə etmək.

**4.2.** İntizam Komissiyasının üzvü aşağıda qeyd edilən vəzifələri daşıyır:

**4.2.1.** malik olduğu hüquqlardan vicdanla istifadə etmək;

**4.2.2.** intizam icraatı üzrə tam, hərtərəfli və obyektiv araşdırma aparmaq;

**4.2.3.** intizam icraatı üzrə qərəzsiz, obyektiv və ədalətli mövqe nümayiş etdirmək;

**4.2.4.** intizam icraatı üzrə əldə etdiyi məlumatların konfidensiallığını təmin etmək və həmin məlumatları yaymamaq;

**4.2.5.** İntizam Komissiyasının iclasında üzrlü səbəbdən iştirak edə bilmədikdə, bu barədə əvvəlcədən məlumat vermək;

**4.2.6.** İntizam Komissiyasının iclasında məsuliyyət məsələsinə baxılan vəkillə və ya müraciət edən şəxslə qohumluq əlaqəsi və ya qərəzli münasibəti olduqda, öz-özünə etiraz etmək.

## 5. İntizam Komissiyasının iclasında məsuliyyət məsələsinə baxılan vəkilin hüquqları və vəzifələri

**5.1.** Məsuliyyət məsələsinə baxılan vəkil aşağıda qeyd edilən hüquqlara malikdir:

**5.1.1.** intizam icraatı üzrə barəsində olan müraciət və digər materiallarla tanış olmaq, izahat və vəsatətlər vermək, sübutlar (sənədlər və digər) təqdim etmək;

**5.1.2.** İntizam Komissiyası iclasının vaxtı və yeri barədə əvvəlcədən xəbərdar edilmək;

**5.1.3.** İntizam Komissiyası üzvünün obyektivliyinə və qərəzsizliyinə əsaslı şübhə doğuran hallar olduqda, ona etiraz etmək;

**5.1.4.** İntizam Komissiyasının rəyinin surətini almaq.

**5.2.** Məsuliyyət məsələsinə baxılan vəkil aşağıda qeyd edilən vəzifələri daşıyır:

**5.2.1.** İntizam Komissiyasının iclasında iştirak etmək və baxılan məsələ üzrə izahat vermək;

**5.2.3.** İntizam Komissiyasının iclasında müəyyən edilmiş qaydaya riayət etmək;

**5.2.4.** intizam icraatı üzrə əldə etdiyi məlumatların konfidensiallığını təmin etmək və həmin məlumatları yaymamaq;

**5.2.5.** intizam icraatı üzrə həqiqəti əks etdirməyən məlumatları və sübutları İntizam Komissiyasına təqdim etməmək;

**5.2.6.** intizam icraatı üzrə çağırışa vaxtında gəlmək, tələb olunduğu halda müvafiq sübutları ağlabatan müddətdə təqdim etmək;

**5.2.7.** intizam icraatı üzrə araşdırmaya öz hərəkət və ya hərəkətsilziliyi ilə maneçilik törətməmək və araşdırmanın süni şəkildə uzadılmasına şərait yaratmamaq.

## 6. İntizam Komissiyasının iclasında müraciətinə baxılan şəxsin hüquqları

**6.1.** İntizam icraatı üzrə müraciətinə baxılan şəxs aşağıda qeyd edilən hüquqlara malikdir:

**6.1.1.** İntizam Komissiyası iclasının vaxtı və yeri barədə əvvəlcədən xəbərdar edilmək;

**6.1.2.** İntizam Komissiyası üzvünün obyektivliyinə və qərəzsizliyinə əsaslı şübhə doğuran hallar olduqda, ona etiraz etmək;

**6.1.3.** İntizam Komissiyasının iclasında iştirak etmək, izahat və vəsatətlər vermək, sübutlar (sənədlər və digər) təqdim etmək.

## 7. İntizam Komissiyasının iş qaydası

**7.1.** Vəkillər barəsində intizam icraatı Vəkillər Kollegiyası Rəyasət Heyətinin müvafiq qərarı əsasında başlanır.

**7.2.** İntizam Komissiyası daxil olan müraciətlər və digər materiallar üzrə intizam icraatının başlandığı gündən 1 (bir) ay müddətində, bir qayda olaraq, məsuliyyət məsələsinə baxılan vəkilin iştirakı ilə araşdırma aparır və müvafiq rəy qəbul edir.

**7.3.** Müraciət edən şəxsin və ya məsuliyyət məsələsinə baxılan vəkilin hərəkət və ya hərəkətsizliyi nəticəsində intizam icraatı üzrə araşdırma süni olaraq uzadıldıqda, müraciət edən şəxsin və ya məsuliyyət məsələsinə baxılan vəkilin səhhəti və ya digər üzrlü səbəblərdən araşdırmanı aparmaq mümkün olmadıqda və digər zərurət olduqda, araşdırma müddəti daha artıq, ağlabatan müddətə uzadıla bilər.

**7.4.** İntizam Komissiyasına daxil olan müraciətlər və digər materiallar Komissiyanın sədrinə təqdim edilir və intizam icraatı üzrə ilkin araşdırmanın aparılması Komissiyanın sədri tərəfindən müvafiq dərkənarla Komissiyanın sədr müavininə və ya üzvünə, yaxud işin mürəkkəbliyi və ya həcmi nəzərə alınaraq onlardan bir neçəsinə həvalə olunur və yaxud zərurət olduqda öz icraatına götürülür.

**7.5.** İntizam icraatı üzrə ilkin araşdırma, məsuliyyət məsləsinə baxılan vəkilin və zərurət yarandıqda müraciət edən şəxsin izahatının alınmasından və müvafiq sübutların əldə edilərək, İntizam Komissiyasının iclasında baxılmağa hazırlanmasından ibarətdir.

**7.6.** İntizam Komissiyasının intizam icraatı üzrə ilkin araşdırmanı aparan üzvü tərəfindən bu araşdırmanın nəticəsinə dair arayış tərtib olunur və toplanmış materiallarla birlikdə Komissiyaya təqdim edilir.

**7.7.** İntizam Komissiyasına daxil olan müraciətlərin dövriyyəsi kargüzarlıq qaydalarına uyğun olaraq qeydiyyat jurnalı vasitəsilə həyata keçirilir.

**7.8.** İntizam Komissiyasının iclasına hazırlıq işlərini Komissiyanın sədri həyata keçirir, iclasın keçirilmə vaxtını, yerini, gündəliyini müəyyən edir, baxılacaq intizam icraatı üzrə materialların tamlığını yoxlayır, iclasda iştirakı nəzərdə tutulan şəxslərin dəvət edilməsini Komissiyanın katibi vasitəsilə təmin edir.

**7.9.** İntizam Komissiyasının üzvlərinə, iclasa dəvət olunan müraciət edən şəxsə və məsuliyyət məsələsinə baxılan vəkilə iclasın vaxtı və yeri barədə qabaqcadan xəbər verilir.

İntizam Komissiyasının üzvləri iclasın gündəliyi və baxılacaq intizam icraatı üzrə aparılmış ilkin araşdırmanın nəticəsinə dair arayışla qabaqcadan tanış edilirlər.

**7.10.** İntizam Komissiyasının iclasına dəvət olunan müraciət edən şəxsə və ya məsuliyyət məsələsinə baxılan vəkilə iclasın vaxtı və yeri barədə müvafiq qaydada xəbər verilməməsi və ya onların üzrlü səbəbdən Komissiyanın iclasına gəlməməsi məsələyə baxılmasını təxirə salmağa səbəb olur.

İclasın vaxtı və yeri barədə müvafiq qaydada xəbərdar edilmiş müraciət edən şəxs və ya məsuliyyət məsələsinə baxılan vəkil üzrsüz səbəbdən iclasa gəlmədikdə, İntizam Komissiyası məsələyə onların iştirakı olmadan baxır.

**7.11.** İntizam Komissiyası üzvlərinin azı üçdə iki hissəsi iştirak etdikdə, onun iclası səlahiyyətli hesab edilir.

**7.12.** İntizam Komissiyasının iclasına onun sədri, o olmadıqda sədr müavini, onlar olmadıqda isə müvafiq intizam araşdırmasını aparan Komissiya üzvü sədrlik edir.

**7.13.** İntizam Komissiyası sədrinin vəkil kimi fəaliyyətinə xitam verildikdə, yeni sədr seçilənədək, digər səbəblərdən öz vəzifəsini müvəqqəti icra edə bilmədikdə isə, həmin dövrdə onun vəzifəsini sədr müavini, o olmadıqda isə Komissiya üzvlərindən biri icra edir.

**7.14.** İntizam Komissiyasının iclasına sədrlik edən təyin olunmuş vaxtda iclası açıq elan edir və onun aparılması qaydasını müəyyən edir, müraciət edən şəxsin və məsuliyyət məsələsinə baxılan vəkilin iclasa gəlmələrini yoxlayır, iştirak etməyən şəxslərin gəlməmələrinin səbəblərini araşdırır, intizam icraatına baxılmasının mümkünlüyü məsələsini müzakirə edir, iclasda baxılan intizam icraatı üzrə müraciət edən şəxs və məsuliyyət məsələsinə baxılan vəkil barəsində məlumat verir, onların hüquq və vəzifələrini izah edir, İntizam Komissiyasının tərkibini elan edir, üzvlərinə etiraz olub-olmamasını aydınlaşdırır, zərurət olduqda iclası təxirə salır və ya baxılan məsələnin nəticəsinə dair səsverməni keçirir və qəbul edilmiş rəyi elan edir.

**7.15.** İntizam Komissiyasının üzvünə etiraz məsələsi Komissiyanın digər üzvləri tərəfindən müzakirə olunaraq səsvermə yolu ilə həll edilir. Səslər bərabər olduqda etiraz qəbul edilmiş sayılır.

İntizam Komissiyasının bütün tərkibinə etiraz verilə bilməz.

**7.16.** İntizam Komissiyasının üzvü haqqında intizam icraatına baxılarkən, o, iclasda Komissiyanın üzvü kimi iştirak edə bilməz.

**7.17.** İntizam Komissiyasının iclasında məsələyə baxılması sədrlik edənin və ya intizam icraatı üzrə ilkin araşdırmanı aparmış Komissiya üzvünün məruzəsi ilə başlanır, sonra müraciəti əsasında araşdırma aparılan şəxs və məsuliyyət məsələsinə baxılan vəkil ardıcıllıqla dinlənilir, verilmiş vəsatətlərə baxılır, zəruri sənədlər və materiallar tədqiq edilməklə araşdırma aparılır və nəticələr müzakirə edilərək müvafiq rəy qəbul olunur.

Əlavə araşdırma aparılmasına zərurət olduqda, məsələyə baxılması təxirə salınır.

**7.18.** İntizam Komissiyasının rəyi yazılı formada tərtib edilir və həmin rəydə aşağıdakı məlumatlar göstərilir:

**7.18.1.** Komissiyanın adı və tərkibi;

**7.18.2.** Rəyin qəbul edilmə yeri və tarixi;

**7.18.3.** Müraciət edən şəxs;

**7.18.4.** Məsuliyyət məsələsinə baxılan vəkil;

**7.18.5.** Müraciətin məzmunu;

**7.18.6.** Məsuliyyət məsələsinə baxılan vəkilin izahatı;

**7.18.7.** Araşdırma zamanı tədqiq edilən sənədlər və digər sübutlar;

**7.18.8.** Araşdırma ilə müəyyən edilən hallar;

**7.18.9.** Komissiyanın baxılan məsələ üzrə gəldiyi nəticə.

**7.19.** İntizam Komissiyası iclasda baxılan məsələ ilə əlaqədar aparılmış araşdırmanın nəticəsinə dair aşağıdakı rəylərdən birini qəbul edir:

**7.19.1.** məsuliyyət məsələsinə baxılan vəkilin əməlində (hərəkət və ya hərəkətsizliyində) intizam pozuntusunun müəyyən edilməsi;

**7.19.2.** məsuliyyət məsələsinə baxılan vəkilin əməlində (hərəkət və ya hərəkətsizliyində) intizam pozuntusunun müəyyən edilməməsi;

**7.19.3.** müraciətdə göstərilən xüsusatlar üzrə məsuliyyət məsələsinə baxılan vəkilin əməlinə (hərəkət və ya hərəkətsizliyinə) hüquqi qiymət verməyin mümkün olmaması;

**7.19.4.** intizam tənbehinin ləğv edilməsi və ya dəyişdirilməsinin məqsədəmüvafiq hesab edilib-edilməməsi.

**7.20.** İntizam Komissiyası rəy qəbul edərkən, qanunvericiliyin tələblərini və intizam icraatı üzrə materialların tədqiqinə əsaslanan öz daxili inamını və hüquq düşüncəsini rəhbər tutur.

**7.21.** İntizam Komissiyası intizam icaatına baxılarkən müraciət edən şəxs şikayətini geri götürdükdə, həmin icraata xitam verilməsi, zərurət yarandığı hallarda isə, həmin icraatın dayandırılması barədə Vəkillər Kollegiyasının Rəyasət Heyəti qarşısında məsələ qaldırır.

**7.22.** İntizam Komissiyası tərəfindən rəy qəbul edilməsi üçün iclasda iştirak edən Komissiya üzvlərinin ümumi sayının yarısından çoxu onun lehinə səs verməlidir.

Səsvermə, məsuliyyət məsələsinə baxılan vəkilin və iclasa dəvət olunmuş şəxslərin iştirakı olmadan keçirilir.

İntizam Komissiyasının iclasına sədrlik edən axırıncı səs verir.

**7.23.** İntizam Komissiyasının rəyi Komissiyanın iclasında iştirak etmiş bütün üzvlər tərəfindən imzalanır.

**7.24.** İntizam Komissiyası üzvünün xüsusi rəyi olduqda, həmin rəy İntizam Komissiyasının rəyinə əlavə olunur.

**7.25.** İntizam Komissiyasının rəyi elan edildiyi gündən qəbul edilmiş hesab edilir.

**7.26.** İntizam Komissiyasının qəbul etdiyi rəyin nəticəvi hissəsi dərhal elan edilir, əsaslandırılmış rəy isə qəbul edildikdən sonra 5 (beş) iş günü ərzində tərtib edilir. İşin mürrəkkəbliyi və ya həcmi nəzərə alınaraq, rəy 10 (on) iş günündən artıq olmayan müddətdə tərtib edilə bilər.

**7.27.** İntizam Komissiyasının qəbul etdiyi rəy əsaslandırılmış şəkildə tərtib edildikdən sonra baxılması və müvafiq qərar qəbul olunması üçün Vəkillər Kollegiyasının Rəyasət Heyətinə təqdim edilir.

**7.28.** İntizam Komissiyasının qəbul etdiyi rəyin surəti məsuliyyət məsələsinə baxılan vəkilin yazılı müraciəti əsasında ona təqdim edilir.

## 8. İntizam Komissiyasının katibi

**8.1.** İntizam Komissiyasının katibi Komissiyanın üzvü olmayan, Rəyasət Heyəti aparatının ali hüquq təhsili və Azərbaycan Respublikasının vətəndaşı olan işçisi seçilir.

**8.2.** İntizam Komissiyasının katibi aşağıda qeyd edilən vəzifələri daşıyır:

**8.2.1.** Komissiyada kargüzarlıq işini təşkil etmək və kargüzarlıq qaydalarına və bu Əsasnamə ilə müəyyən edilmiş qaydalara uyğun olaraq Komissiyaya daxil olmuş sənədlərin dövriyyəsini və düzgün qeydiyyatını və arxivləşdirilməsini təmin etmək;

**8.2.2.** öz fəaliyyətində qanun aliliyi prinsipini rəhbər tutmaq, hüquq və vəzifələrindən sui-istifadə etməmək;

**8.2.3.** İntizam Komissiyasının iclasında müəyyən edilmiş qaydaya riayət etmək;

**8.2.4.** intizam icraatı üzrə əldə etdiyi məlumatların konfidensiallığını təmin etmək və həmin məlumatları yaymamaq;

**8.2.5.** intizam icraatı üzrə araşdırmaya öz hərəkət və ya hərəkətsiziliyi ilə maneçilik törətməmək.

**8.2.6.** Komissiyanın iclasının gündəliyini Komissiya sədrinin müvafiq tapşırığına əsasən hazırlamaq;

**8.2.7.** Komissiyanın iclasına dəvət olunmuş şəxslərin məlumatlandırılmasını təmin etmək.

**8.3.** Komissiyanın katibinə Komissiyanın fəaliyyətinin təmin edilməsi ilə bağlı digər vəzifələr də həvalə edilə bilər.

## 9. İntizam Komissiyasının fəaliyyətinin təmin edilməsi

**9.1.** İntizam Komissiyasının fəaliyyətinin təşkilati, maliyyə və maddi-texniki təminatı Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən həyata keçirilir.